# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-4-cü maddəsinə əsasən, həmin Qanunun 18.65.1.1-ci maddəsinə uyğun olaraq avtonəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsinə görə ödənilən dövlət rüsumundan toplanılan və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi barədə**

“Azərbaycan Respublikası Prezidentinin “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2001-ci il 26 dekabr tarixli 621 nömrəli, “Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2017-ci il 1 may tarixli 1358 nömrəli fərmanlarında və “Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində “Avtomobil yolları” Məqsədli Büdcə Fondunun yaradılması haqqında” 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 noyabr tarixli 851 nömrəli Fərmanının 4-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-4-cü maddəsinə əsasən, həmin Qanunun 18.65.1.1-ci maddəsinə uyğun olaraq avtonəqliyyat vasitələrinin

qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsinə görə ödənilən dövlət rüsumundan toplanılan və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar 2020-ci il yanvarın 1-dən tətbiq edilir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 13 iyun 2020-ci il

№ 206

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 iyun tarixli 206 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-4-cü maddəsinə əsasən, həmin Qanunun 18.65.1.1-ci maddəsinə uyğun olaraq avtonəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsinə görə ödənilən dövlət rüsumundan toplanılan və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə**

## QAYDASI

### 1. Ümumi müddəa

1.1. Bu Qayda “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-4-cü maddəsinə əsasən, həmin Qanunun 18.65.1.1-ci maddəsinə uyğun olaraq avtonəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsinə görə ödənilən dövlət rüsumundan toplanılan və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (bundan sonra – Nazirlik) xəzinə hesabına köçürülən vəsaitdən (bundan sonra – xüsusi vəsait) Nazirliyin işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq, habelə Nazirliyin texniki baxış stansiyalarının saxlanılmasını təmin etmək məqsədilə istifadə qaydasını müəyyən edir.

### 2. Xüsusi vəsaitin ödənilməsi qaydası

2.1. Xüsusi vəsaitin təyinatı üzrə istifadə edilməsi məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyində Nazirlik üçün xüsusi xəzinə hesabı açılır.

2.2. Nazirliyin xüsusi xəzinə hesabına daxil olan vəsaitdən Nazirliyin işçiləri üçün müəyyən olunmuş aylıq əməkhaqqı fondunun (vəzifə maaşına əlavələr istisna olmaqla) 2 misli həcmindən çox olmamaqla, hər ay onlara mükafat ödənilir. Qalan vəsait isə Nazirliyin texniki baxış stansiyalarının saxlanılmasına, o cümlədən yeni texniki baxış stansiyalarının tikintisinə, təmirinə və avadanlıqlarla təchiz edilməsinə xərclənir.

2.3. Xüsusi vəsaitin Nazirliyin işçiləri arasında bölgüsü Azərbaycan Respublikası Daxili İşlər nazirinin əmri əsasında daxil

olmuş vəsait nəzərə alınmaqla işçilərin aylıq vəzifə maaşlarının 2 mislindən çox olmamaqla fərdi mükafatlandırma qaydasında həyata keçirilir.

2.4. Xidməti ezamiyyət dövrü işçinin hesabat ayındakı iş günləri kimi nəzərə alınır.

2.5. Mükafat aşağıdakı günlər üçün hesablanmır:

2.5.1. işçinin əmək məzuniyyətində olduğu günlər, əmək qabiliyyətini müvəqqəti itirdiyi, həmçinin hamiləliyə və doğuşa görə məzuniyyətdə olduğu günlər;

2.5.2. işçinin ödənişli yaradıcılıq və təhsil məzuniyyətində, qismən ödənişli sosial məzuniyyətdə və ödənişsiz məzuniyyətdə olduğu günlər.

2.6. Mükafat Nazirliyin işçilərinin aylıq vəzifə maaşına əlavə olunmaqla, hər ay üçün növbəti ayın 20-dək ödənilir.

## 3. Xüsusi vəsaitin istifadəsinə nəzarət

3.1. Xüsusi vəsaitin istifadəsinə nəzarət Nazirlik və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

3.2. Xüsusi vəsaitdən istifadə olunmasına dair hesabat Nazirlik tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 502 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə”yə əsasən hazırlanır və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir.

## 4. Yekun müddəalar

4.1. Mükafatdan fiziki şəxslərin gəlir vergisi, məcburi dövlət sosial sığorta haqqı və işsizlikdən sosial sığorta haqqı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, Azərbaycan Respublikasının “Sosial sığorta haqqında” və “İşsizlikdən sığorta haqqında” qanunlarına uyğun olaraq tutulur.

4.2. Xüsusi vəsaitin istifadə olunması ilə bağlı digər məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 502 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə”yə uyğun olaraq həyata keçirilir.